# AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ İLƏ LATVİYA RESPUBLİKASININ DÖVLƏT BİTKİ MÜHAFİZƏSİ XİDMƏTİ ARASINDA BİTKİ SAĞLAMLIĞI VƏ BİTKİ MÜHAFİZƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA

## ANLAŞMA MEMORANDUMU

Bundan sonra "İştirakçılar" adlandırılacaq Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Latviya Respublikasının Dövlət Bitki Mühafizəsi Xidməti,

Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında ənənəvi yaxın münasibətlər nəzərə alınaraq,

Bitki sağlamlığı və bitki mühafizəsi sahəsində dostcasına məsləhətləşmələr vasitəsilə ikitərəfli əməkdaşlığı gücləndirmək,

Beynəlxalq Bitki Mühafizəsi Konvensiyasının müddəalarına (IPPC), fitosanitar tədbirlər üzrə beynəlxalq standartların və İştirakçıların dövlətlərinin ərazilərində qüvvədə olan qanunvericiliyə uyğun olaraq, ətraf mühitə və insan həyatına mənfi təsir göstərə biləcək zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısını almaq, İştirakçıların dövlətlərinin ərazilərində bitki mühafizəsini, bitki və bitkiçilik məhsullarının ixracı və idxalını təmin etmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

### Paraqraf 1

Bu Anlaşma Memorandumunun məqsədi İştirakçılar arasında bitki sağlamlığı və bitki mühafizəsi sahəsində əməkdaşlığı inkişaf etdirmək və iki ölkə arasında bitki və bitkiçilik məhsullarının ikitərəfli ticarətini asanlaşdırmaqdır.

### Paraqraf 2

İştirakçılar öz səlahiyyətləri çərçivəsində və dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq qarşılıqlı faydalı ticarətin inkişafı məqsədilə bitki sağlamlığı və bitki mühafizəsi sahəsində əməkdaşlıq edəcək və təcrübə mübadiləsi aparacaqlar.

İştirakçılar fitosanitar qanunvericilik, standartlar, texniki tələblər, diaqnostik metodlar, idxal, ixrac və təkrar ixrac edilən bitki və bitkiçilik məhsullarının fitosanitar yoxlamaları ilə bağlı tətbiq olunan nəzarət tədbirləri haqqında məlumat mübadiləsi aparacaqlar.

İştirakçılar idxal, ixrac və təkrar ixrac edilən bitki və bitkiçilik məhsullarında aşkar edilmiş problemlər və tətbiq olunan nəzarət tədbirləri barədə bir-birlərini məlumatlandıracaqlar.

İştirakçılar zərərli orqanizmlərin risk analizinin aparılması, zərərli orqanizmlərin monitorinqi və fitosanitar nəzarət altında olan məhsullar üzrə məlumat mübadiləsi həyata keçirəcəklər.

İştirakçılar texniki maneələrin qarşısını almaq və fitosanitar nəzarəti altında olan məhsulların təhlükəsiz ticarətini asanlaşdırmaq məqsədilə beynəlxalq standartlara və Tərəflərin dövlətlərinin qüvvədə olan milli qanunvericiliyinə, habelə fitosanitar tədbirlərə dair tövsiyələrə riayət edəcəklər.

## Paraqraf 3

İştirakçılar öz səlahiyyətləri daxilində aşağıdakı formalarda əməkdaşlıq edə bilərlər:

1. Bitki sağlamlığı və bitki mühafizəsi üzrə uzunmüddətli proqramların hazırlanması və onların icrasına nəzarət edilməsi;

2. Fitosanitar qanunvericiliyin, beynəlxalq standartların və texniki tələblərin, diaqnostik metodlarının və tətbiq olunan nəzarət tədbirlərinin icrası üzrə təcrübə mübadiləsi aparmaq məqsədilə mütəxəssislərin qarşılıqlı səfərlərinin təşkili;

3. Bitki və bitkiçilik məhsullarının idxal, ixrac və təkrar ixracı barədə müəssisələrin məlumat əldə etmələrini təmin etmək məqsədilə ekspozisiyalar və sərgilər haqqında məlumat mübadiləsi.

## Paraqraf 4

Bu Anlaşma Memorandumunun icrasından irəli gələn xərclər İştirakçılar tərəfindən öz büdcələrinə uyğun olaraq qarşılanacaqdır.

Hər bir İştirakçı birgə fəaliyyətlərdə iştirakı ilə bağlı xərcləri özü ödəyəcəkdir.

İştirakçılar ümumi maraq doğuran sahələr üzrə layihələr üçün tələb olunan maliyyə vəsaitlərini əldə etmək məqsədilə beynəlxalq təşkilatlara və ya digər maliyyə institutlarına birgə müraciət edəcəklər.

**Paraqraf 5**

Bu Anlaşma Memorandumu İştirakçıların dövlətlərinin milli qanunvericiliyinə, eləcə də Avropa İttifaqının üzv dövləti kimi Latviya Respublikasının öhdəliklərinə uyğun olaraq icra olunacaq.

Bu Anlaşma Memorandumu beynəlxalq müqavilə deyil və beynəlxalq hüquqla tənzimlənən hər hansı hüquq və öhdəliklər yaratmır.

**Paraqraf 6**

Bu Anlaşma Memorandumunun təfsiri və ya icrası ilə bağlı hər hansı fikir ayrılıqları İştirakçılar arasında məsləhətləşmələr və danışıqlar yolu ilə dostcasına həll ediləcəkdir.

**Paraqraf 7**

Bu Anlaşma Memorandumuna ediləcək hər hansı dəyişikliklər İştirakçıların qarşılıqlı yazılı razılığı əsasında və 8-ci paraqrafın müddəalarına uyğun olaraq qüvvəyə minən ayrıca Protokollar formasında həyata keçirilə bilər.

**Paraqraf 8**

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir və İştirakçılardan hər biri onu ləğv etmək niyyəti barədə digər İştirakçıya bildirmədiyi halda 10 (on) il müddətində qüvvədə qalır. Xitam belə bildirişin alınmasından 6 (altı) ay sonra qüvvəyə minir.

Bu Anlaşma Memorandumunun ləğvi, İştirakçılar arasında başqa cür razılaşdırılmadığı təqdirdə, onun çərçivəsində artıq başlanılmış proqramların və fəaliyyətlərin qüvvədə olmasına və davametmə müddətinə təsir göstərməyəcək.

Bakı şəhərində, “____” _______ tarixində, iki əsl nüsxədə, hər biri Azərbaycan, latış və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bu Anlaşma Memorandumunun təfsirində hər hansı uyğunsuzluq yarandığı halda, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından** | **Latviya Respublikasının Dövlət Bitki Mühafizəsi Xidməti adından** |